
MAVİ MARMARA

# O on nəfər şəhid...

Kəhf əshabının altı cəsur mömin və bir nəfər sədaqətli çoban olduğunu oxumuşuq. Kəhf əhli zalıma qarşı çıxdıqdan sonra ondan qaçıb mağaraya sığındılar, "Mavi Marmara" əhlinin şəhidləri isə zalımın üzərinə gedərək Qəzzadakı məzlumların yardımına tərəf qaçmışdılar. Onlar Qəzzanın zəif və kasıb xalqına sadəcə yardım aparırdılar. Onların yükü qida maddələri, geyiləsi paltarlar, ultrason, tomoqrafi kimi tibbi avadanlıqlardan ibarət bir yardım paketi idi. İstək və niyyətləri təmiz, yükləri isə insan övladının ibtidai ehtiyaclarından təşkil tapmışdı. Heç bir mənfəət və maraqları yox idi. Bu karvanın yolçuları təmiz kəslər idi, xüsusən on nəfər şəhid isə seçilmiş pak nəfəs sahiblərindən oldu.

Lakin, İsrail hökuməti...

Ən pak insanın düşməni ən murdar zalım şəxs olur. Tarixin istənilən səhifəsi şəhadət verir ki, nəfəsi və qəlbi pak olan insanların qatilləri daim ən xəbis, zalım və qansız kəslər olub. "Mavi Marmara" əhlinin müqavimət göstərmək üçün əl atıb götürdükləri əşyalar mətbəx və meyvə bıçaqları, adi taxta dəyənəklər və təmir alətləri idi. Tülkü xislətli sionistlər də məhz bunları misal göstərdi və özlərini günahsız kimi təqdim etməyə çalışdı. Qəzzanın 73 mil aralığında  Beynəlxalq sularda hücum edən və əllərində silah ilə gəmiləri qarət edən israilli xüsusi təyinatlı hərbçilərin atəş açıb adi sivil insanları və pak niyyətlə yola çıxmış şəxsləri öldürməsinə necə haqq qazandırmaq olardı axı? Onlar isə öldürdülər, hər şeyi qarət etdilər, qəzzalıları məhrum qoydular, hələ üstəlik arsızcasına bu işlərdə haqlı olduqlarını da elan etdilər. Zülmün və zalımın beləsini tarix az görmüşdür. 1940-cı illərdən bu yana etdiklərinin üstünə Mavi Marmaranı da əlavə edən İsrail hökümətinə qarşı türk xalqının haqlı qəzəbi şiddətləndi və bu gün də azalmamışdır. Biz də onların səsinə səs verir və harada olsaq deyirik ki, "kahrolasın İsrail".

**|| Şəhid İbrahim Bilgen ||**



Nur üzlü şəhid İbrahim Bilgen İsrail əsgərləri tərəfindən şəhid edilərkən 61 yaşı vardı. Gəncliyində elektrik mühəndisi kimi çalışmış, təqaüdə çıxdıqdan sonra isə özünə tv kanal açmışdır. Uzun müddət mərhum Ərbakan Hocanın Refah Partiyasının Siirt şəhər nümayəndəliyinə rəhbərlik etmişdir. Ondan niyə Ərbakan Hocanın Partiyasını seçdiyi soruşulanda belə cavab vermişdi;

“Əsla nə Amerika, nə də başqa bir ölkənin boyunduruğu altına girmədiyi üçün...”

İbrahim Bilgen Qəzzaya yardım aparan gəmidə yer almaq üçün doldurduğu forumda belə yazmışdı; Gəmidəki elektriklə bağlı bütün problemləri həll edə bilərəm...
İsrail hərbiçiləri gəmiyə hücum edərkən onun sağ çiyin, kürək, bel və ayağından 4 güllə vuraraq şəhid etmişdilər.
Oğlu Yusuf Bilgen belə deyir; Atam şəhid olmağı çox istəyirdi. Allah da ona şəhidlik nəsib elədi. Onunla qürur duyuram.
Şəhid İbrahimin həyatının ən maraqlı hissəsi isə elekrtik mühəndisi kimi çalışdığı zamanlara

təsadüf edir. Yaşadığı bölgədə hansı fəqirin elektrik işi olsa imiş ilk onun qapısını çalarmışlar. İbrahim həmin fəqirlərin kiçik ödənişlərini belə qəbul etməyərək “dua etsəniz kifayətdir” deyərmiş...







ŞEHİT İBRAHİM
BİLGEN
SU KUYUSU
TÜRKİYE
SOMALİ-2020
sadakataşı

## || Şəhid Ali Haydar Bengi ||



Ali Haydar Bengi Əl-Əzhər universiteti məzunu idi. Ərəb dilini mükəmməl bildiyi üçün Qəzzaya yardım aparan Mavi Marmara gəmisində tərcüməçi olaraq yola çıxmışdı. Ömrünü islami elmlərə həsr etmiş Ali Haydar Hoca dini təhsilini bitirdikdən sonra Türkiyəyə qayıtdığı zamanlarda diplomu ölkəsində tanınmadığı üçün işsiz qalmış və məcburiyyət qarşısında telefon ustalığını öyrənərək dolanışığını təmin etməyə başlamışdı. Ali Haydar Hoca həm də güclü idmançı olmuşdur. Nəfsini tərbiyə etmək üçün daim oruc tutar və gecə namazlarını əsla tərk etməzdi. Məhanur, Səmanur, Sənanur və Muhəmməd Mustafa adlı 4 uşaq atası olan Şəhid Ali Haydar telefon təmirindən qazandığı pul ilə həm ailəsini saxlayır, həm də islami təbliğat üçün açdığı "AYDER" dərnəyinin xərclərini qarşılayırdı. Mavi Marmara gəmisinə minmədən əvvəl şəhid olacağını demiş və bunun ona yuxuda əyan olduğunu bildirmişdi. Daim Allahdan şəhidlik istəyən bu pak şəxsin hələ tələbə ikən dəftərinin ilk səhifəsinə yazdığı kəlmə belə idi; Ölümü sev ki, həqiqi həyat sənə ərmağan edilsin...




بسم الله الرحمن الرحيم
EL FATİHA
GAZZE ŞEHİDİ
ALİ HAYDAR BENGİ
Şehid Ali Haydar BENGİ

## || Şəhid Uğur Süleyman Söylemez ||



Uğur Süleyman Söylemez İsrailin Mavi Marmara gəmisinə hücumu zamanı başından yaralanmış və 4 il komada qaldıqdan sonra şəhadətə çatmışdır. Gəmiyə minməzdən 3 gün əvvəl yazdığı vəsiyyətində belə deyirdi; Məzlum Fələstin xalqına qarşı qardaşlıq məsuliyyəti daşıyırıq. Bu yolda hər şeyimizdən keçib, başımıza gələcək bütün müsibətlərə səbr etmək üçün Allah təvəkkül etmişik. İnsan İlahi prinsipləri uğrunda lazım gələrsə hər şeyindən keçməyi bacarmalıdır. Çünki İlahi prinsiplər hər şeyin fövqündədir... Mən İsrailin hər cür təhdidinə hazıram. Əgər məni vursalar şəhid olacam. Əgər yolumuz açılsa blokadada olan qardaşlarımıza yardım çatdıracam. Sizlərdən istəyim budur ki, yaşadığınız ölkədəki tağut rejimlərə qarşı mübarizə aparın. Allahın dinini yer üzündə hakim qılmaq üçün Allahdan yardım diləyin. Əmin insan olun, çünki hər şeyin başı əmin insan olmaqdadır. Çünki peyğəmbərimiz peyğəmbər olmamışdan əvvəl əmin insan idi...



Bu vəsiyyətnamə Uğur Süleyman Söylemezin qəbri üstə oxunarkən hər kəs göz yaşına qərq oldu və köz bağlamış Mavi Marmara yarası 4 il sonra yenidən qanamağa başladı. Şəhid Süleyman Söylemezin taleyi gəmidəki hər kəsdən və digər 9 şəhiddən fərqlənir. Gəmi, yaralılar və şəhidlər Türkiyəyə qayıtdıqdan sonra belə Süleyman qayıtmamış və İsrail hərbçiləri tərəfindən İsraildə bir xəstəxanada saxlanılmışdı. Onun yarımcan olmuş bədənini həyat yoldaşı geri almaq üçün İsrailə yollanmış və israilli mənfurlar Süleyman Söylemezin Türkiyəyə qaytarılarkən yolda həyatını dəyişəcəyi təqdirdə heç bir məsuliyyət daşımadıqlarını bildirmişdilər. Şəhidin xanımı isə onlara belə bir cavab vermişdi; Şəhid edərkən necə, məsuliyyət daşıyırdınızmı?!...

Şəhidin xanımı yoldaşının yaralı bədənini Türkiyəyə gətirdiyi zaman müsahibə verərək belə demişdi; Mən bu hadisələrin fonunda Qəzza və Fələstin xalqının çəkdiyi ağrı və əzabları anladım. Bəzi şeyləri yaşamadan anlamaq olmur. Əminəm ki, həyat yoldaşım bugün ayağa qalxsa, qalxıb yenidən fələstinlilərin yardımına qaçar...



**|| Şəhid Çetin Topçuoğlu ||**



Türkiyənin taekvando üzrə dünya çempionu Çetin Topçuoğlu şəhid edilərkən 54 yaşında idi. 1992 və 1998-ci illərdə ilin hakimi seçilmişdi. Gəmiyə minərkən dostlarına “dünyada çempion oldum, istəyirəm ki, axirətdə də çempion olum” demişdi. Qəzzaya gedən gəmidə həyat yoldaşı Çiğdem Topmuoğlu da onunla birlikdə idi. Türkiyə milli taekvandoçusu olan Çiğdem xanım vətənə qayıtdıqdan sonra belə demişdi;



İsrail insanlıqdan nəsibini almamış bir rejimdir. Onların cinayəti bütün insanlığa qarşıdır. Biz hüznlüyük, amma izzətliyik! Zilləti qazananlar utanmalıdırlar. Biz İsraildən nə təzminat nə də üzr qəbul etməyəcəyik. Şəhidlərimizin qanı satılıq deyil. Terrorçu İsrail rejimi məhv olmadıqca bizə rahat yoxdur.



Xanımı daha sonra əlavə edir; Güllə yoldaşımın başına dəyib göz nahiyəsini dağıtmışdı, ağzından və burnundan qanlar gəlirdi, amma ruhunu hələ təslim etməmişdi. Son dəfə mənimlə danış dedim, inildədi. Ona son sözüm belə oldu; “Peyğəmbərə və Şəhidlərə salam de”...



## || Şəhid Cengiz Songür ||



Şəhid Cengiz 7 uşaq atası idi. Mavi Marmara gəmisinə minərkən cibindən bir məktub tapdı. Məktubu 6 qızından biri yazmışdı;

“Seni sonunda kaybetmek de olsa git baba... Bir yetimin gülümsemesi için, bir annenin duası için git baba... Geriye bir tek adın da dönse git... Senin kızın olmak çok ama çok güzel baba…”

47 yaşlı şəhid qürurla göstərdi məktubu səfər yoldaşlarına. Şəhid olarkən də həmin məktub cibində idi. Məktubu yazan qızı deyir;

“Qorx İsrail! Artıq səni yox etməyə hazır möminlər çox yaxınındadırlar!
Əziz ata! Sən isə gözlərimin naminə baxma. Uşaq olduğuma görədir. Yoxsa ki, dik durmuşam...”



Yeni Şafak

TÜRKİYE'NİN BİRİKİMİ — 5 HAZİRAN 2010 CUMARTESİ — 50 KURUŞ

# GERİYE BİR TEK ADIN DÖNSE DE GİT BABA

İsrail kurşunlarıyla şehit düşen Cengiz Songür'ün kızı babasının cebine gizlice koyduğu mektupla fedakarlık dersi verdi: Annemin yüzündeki endişeyi gördükçe korkuyorum. Ama bir yetimin gülümsemesi için geri dönemesen de git baba

GÜLEN'DEN FARKLI BİR YORUM

ALTI KIZINDAN BİRİ YAZDI

YÜZLERCE KELİME VAR, AMA...

SENİN KIZIN OLMAK ÇOK GÜZEL BABA

ÖZEL HABER

GEMİYİ GÖZYAŞINA BOĞDU



## || Şəhid Necdet Yıldırım ||



İsrail əsgərləri gəmiyə hücum edərkən o səfər yoldaşlarına yardım etmək üçün üst mərtəbəyə qaçmış və şəhid edilmişdi. Evli idi və Mələk adlı bir qızı vardı. Jurnalistlər yaxın qohumları, qonşuları və iş yoldaşlarından Şəhid Necdet barədə soruşanda ilk aldıqları cavab bu olurdu; "O çox gülərüz və mehriban insan idi..."



Şəhid edilərkən 27 yaşı vardı Necdetin. Xanımı deyir ki, gəmidə ilk 2 nəfərin şəhid olduğu xəbəri gəlmişdi. Əmin idim ki, onlardan biri Necdet Bəydir. Necdet Bəy çox əxlaqlı bir insan idi. Onun

əxlaqını söz ilə təsəvvür etmək mümkün deyil. Anasına bircə dəfə “of” belə deməmişdi. Gəmidə 600 adam var idi və Allah onların içindən 10 nəfəri seçdi, Necdet Bəy də onların içində idi. Adi ölümlə də ölə bilərdi, amma ölmədi, Allah onu ən gözəl şəkildə apardı dünyadan. Tabutda gələrkən son dəfə görmək istədim. Üzünü açdım və dedim ki, “gözəl idin, biraz da gözəlləşmisən”...



# || Şəhid Cevdet Kılıçlar ||



Fələstinə yardım aparan Mavi Marmara gəmisi heyətinə qatılmaq üçün baş vurarkən ona bir forum verilmiş və həmin forumda “gəmidə hansı sahədə yardım edə bilərsiniz?” sualına “nə iş tapşırsanız edərəm” cavabını yazmışdı. Şəhid Cevdet yazdığı həmin cavaba uyğun həyat yaşayan biri idi. Siz onu Allahın dininə və yer üzündəki zəif bəndələrinə xidmət yolunda hər sahədə görə bilərdiniz-Afrikada su quyusu qazarkən belə...



38 yaşında və 2 uşaq atası olan Cevdet Kılıçlar jurnalist idi və o jurnalistlik peşəsini müqəddəs sayan dünyadakı tək-tük insanlardan biri idi desək yanılmarıq. Səfər etdiyi bütün ölkələrdə məzlumların vəziyyətini çəkib işıqlandırmağa çalışırdı daim...



Hər kəs yaşadığı kimi həyatdan köçər deyiblər. Şəhid Cevdet də bir ömür insanlara həqiqəti çatdırmış və nəhayət son missiyasını tamamlamaq üçün Qəzzaya yollanaraq ordakı vəziyyəti dünyaya çatdırmaq fikrinə düşmüşdü.



Amma Allah onun boynuna Qəzzaya çatmamışdan əvvəl bir vəzifə daha qoydu; Gəmidəki İsrail vəhşiliyini dünyaya çatmırmaq... Cevdet Kılıçlar gizlənmədi və silahını, yəni kamerasını əlinə alaraq Allah yolunda döyüşməyə başladı.

Bəli döyüşdü, cihad etdi. Onun cihadı dünyaya bu rəzil hökümətin əsil simasını göstərmək idi. Bu yolda da şəhadətə çatdı...



Şəhid Kılıçlar dünyadakı bütün jurnalistlərdən fərqli olduğu kimi, şəhadəti də digər 10 nəfər şəhid olmuş səfər yoldaşından fərqli oldu. Onun alnına dəymiş güllə həkimlər tərəfindən çıxarılarkən bütün dünyanı sarsan bir bəyənat verildi; "Cevdet Kılıçlar qapı qırmaq üçün istifadə olunan Amerikanın İsrailə verdiyi "Shotgun" silahı ilə vurulmuşdu"... Hədəfi xüsusi zülmlə qətlə yetirən bu silah əminik ki, Cevdet Kılıçları zərrə qədər incitməyib... Allah dostlarına Allah yolunda çəkdikləri bütün əziyyətlər dünyadakı bütün rahatçılıqlardan daha rahatdır...

## || Şəhid Fahri Yaldız ||




Fahri Yaldız şəhid olarkən 43 yaşında idi. Gəmiyə minmədən əvvəl hər kəslə halallaşmışdı. Kiçik yaşlarından yetim böyümüş, anası və qardaşlarına çalışaraq özü baxmışdı. Fələstindəki yetimlərin nələr çəkdiyini hər kəsdən çox o başa düşürdü. 4 uşaq atası olan Şəhid Fahri yanğınsöndürən idi. Bir ömür Allah bəndələrinə xidmət yolunda çalışmış və həmin yolda da şəhadətə çatmışdı. Fahri Yaldız kiçik bir emalatxana işlədir və həmin emalatxanadan əldə etdiyi gəlirlər ilə fələstinli yetimlərə yardım yollayırdı.




Şəhidin anası onun haqqında belə deyir; “Fahri uşaq ikən ayaqqabı boyayır və ordan əldə etdiyi gəlirlə evə baxırdı. Ona kimsə paltar hədiyyə edəndə aparıb həmin paltarı da kasıb adamlara verirdi. Məscid və yetimxana tikintilərində daim pulsuz çalışmışdı. Mənim oğlumu İsrail əsgərləri qətlə yetirdilər. Heyf... Çox heyf ki, oğluma Qəzzadakı yetimlərə yardım etməsinə fürsət vermədilər. Təkcə buna heyfslənirəm...”



# || Şəhid Furkan Doğan ||




Mavi Marmaranın ən kiçik şəhidi-Furkan Doğan gəminin göyərtəsində güllə səsi eşidərkən bir kağıza bu sözləri yazmışdı;

“Şəhadət şərbəti içməyimə çox az qaldı. Varmı bundan daha gözəl bir şey?!... Varsa da o da ancaq anam ola bilər...”Onun üzünə 1 metr məsafədən 4 güllə vuraraq şəhid etmişdilər. Atası oğlunun şəhadəti barədə belə deyir; “Nə peşmanlığımız var, nə də nəyəsə görə kaşki deyirik. Şəhid atası olduğum üçün də çox xoşbəxtəm. Oğlum gözəl bir yolda şəhadətə çatdı...”

Şəhidin qardaşı isə belə deyir; “Qardaşım məzlum fələstinlilərə görə şəhid oldu. Onlara bizim də canımız fəda olsun...”

İsrail əlindəki tək silahı bir qələm olan 19 yaşlı məsum insanı şəhid etdi. Özü də ən qəddar və vəhşi formada...



Furkan yaşı az, amma ruhu böyük biri idi. Ailəsinin verdiyi xərclikləri belə daim xeyriyyə cəmiyyətlərinə bağışlayan bu gəncin çox qəribə əxlaqi xüsusiyyətləri olub. Valideynləri deyir ki, o qədər təvazökar biri imiş ki, yay məktəbində tələbələrin yemək yediyi qabları və hətta paltarlarını yuduğu üçün hər kəs onu yayın sonuna qədər kursdakı xadimənin oğlu zənn edibmiş. O qədər əxlaqlı imiş ki, hətta bircə dəfə də olsa səsini qaldırıb danışmazmış.



**|| Şəhid Cengiz Akyüz ||**



Cengiz Akyüz 41 yaşında və 3 uşaq atası idi. Ondan niyə bu gəmidəsiniz sualı soruşulanda çox sadə bir cavab vermişdi; “Allah üçün”...

Şəhid Akyüzün gözəl səsi var idi və daim dostları üçün şəhadət türküləri oxuyardı. Gəmiyə minmədən əvvəl dostlarına “artıq mənim üçün də bir şəhadət türküsü yazarsınız” demişdi.

Xanımı deyir ki, onun getmədən əvvəl məndən tək xahişi uşaqlarının namazlarına diqqət etməyim olmuşdu.




Oğlu isə şəhid atası barədə belə deyir; "Atam necə yaşamışdısa, o cür də dünyadan getdi. Həmişə bu yolda çalışıb əmək sərf etmişdi. Hər kəs buna şahiddir. O, Allah üçün daim təlaşlı idi. Atamın sayəsində zülmə qarşı müqavimətin ləzzətini dadmış olduq. Biz 2012-ci ildə İsraili məhkəməyə verdik və 4 illik mübarizəmiz Türkiyə və İsrail arasında bağlanan müqavilələrə görə hökümətimiz tərəfindən sonlandırıldı. Amma bizim üçün heç nə bitməyib. Bitməyəcək. Bizə mübarizəmizdən əl çəkməyimiz üçün pul təklif edən İsrail hökümətinə də, Türkiyə Xarici İşlər Nazirinə də istəyimizin pul deyil, yalnız onların cəzalandırılması olduğunu aşkar şəkildə bildirmişik"...



**SON**